# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QURUCULUĞU

***Gülnar Gülbudaq qızı Xalıqova***

*Şabran rayon Heydər Əliyev Mərkəzi*
*xaliqovagulnar446@gmail.com*

***Açar sözlər:*** *Müstəqillik, dövlət quruculuğu, əzmkar lider, uğurlu addımlar*

***Ключевые слова:*** *Независимость, государственное строительство, решительный лидер, успешные шаги*

***Keywords:*** *Independence, state building, determined leader, successful steps*

**Xülasə:** Ümumiyyətlə, Heydər Əliyev məktəbi çox böyük bir məktəbdir. O məktəbi keçən hər kəs dövlət və dövlətçilik anlamını dərk edib, yüksək bacarıq nümayiş etdirir. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi gündən ölkənin ilk olaraq daxilində asayişi bərpa etdi. Hərbi qanunların əsasında ordunun yaradılmasına başladı. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, Müstəqil Azərbaycan Respublikasıdır. Heydər Əliyev Yeni azərbaycan Partiyasının yaranmasını özünün şah əsəri kimi sayırdı və "Biz elə dövlət qurmalıyıq ki, heç bir yerdə əyilməsin, dağılmasın!",- deyirdi.

**Резюме:** В целом, школа Гейдара Алиева — это великая школа. Каждый, кто прошёл через эту школу, осознаёт значение государственности и демонстрирует высокий уровень профессионализма. С момента возвращения Гейдара Алиева к власти во второй раз он прежде всего восстановил порядок внутри страны. На основе военных законов он начал формирование национальной армии. Наивысшим результатом политической и государственной деятельности Гейдара Алиева является совершенное национальное государство — Независимая Азербайджанская Республика, строительство которой он лично возглавил и подарил нашему народу. Гейдар Алиев считал создание партии "Новый Азербайджан" своим шедевром и говорил: «Мы должны построить такое государство, которое нигде не согнется и не развалится!»

**Summary:** In general, the Heydar Aliyev school is a great school. Everyone who has gone through this school understands the meaning of statehood and governance, and demonstrates high competence. From the day Heydar Aliyev returned to power for the second time, he first restored order within the country. Based on military laws, he began the formation of the national army. The greatest result of Heydar Aliyev's political and state activity is the perfect national state – the Independent Republic of Azerbaijan – which he personally led in building and gifted to our people. Heydar Aliyev considered the creation of the New Azerbaijan Party as his masterpiece and said: "We must build a state that will never bend or fall apart anywhere!"

Müasir Azərbaycan dövlətinin banisi, ölkəmizin davamlı inkişaf strategiyasının müəllifi, dövrümüzün ən görkəmli siyasi xadimi, tarixi uzaqgörənliyi, dönməz əqidəsi, qətiyyəti və əzmkarlığı ilə dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olunmasına verdiyi töhfələrə görə xalqın Ümummilli lider adını qazanmış Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində müstəsna yerə malikdir.

Heydər Əliyevin fəaliyyəti nəticəsində dövlətimiz özünün geosiyasi mövqeyini möhkəmləndirmiş, iqtisadi yüksəliş yoluna qədəm qoymuş, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və müasir dünyanın ən dinamik və davamlı inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, milli dövlətçilik ideyasının bərqərar olması və vətəndaş cəmiyyətinin təşəkkülü, xalqımızın qədim və zəngin milli-mənəvi də-

yərlərinə qayıdışı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, elm,təhsil və mədəniyyətin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır.[ 1, səh 3]

Müstəqil Azərbaycan dövlətinin təşəkkülü və hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması işinə töhfələr vermiş, Ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği 2014-cü ilin 7 may tarixində ölkə Prezidenti İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun yaradılması əsas fəaliyyət istiqamətlərindəndir.[1 ,səh 3]

Məlum olduğu kimi hər bir xalqın ana dili onun varlığının ən başlıca göstəricisi, özünütəsdiqidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə dediyi kimi, "xalqı xalq edən, milləti millət edən onun ana dilidir". Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin hazırda dünya dilləri sırasında özünəməxsus yeri,necə deyərlər, imzalar içərisində imzası vardır. [ 1, səh 11] Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir.

Ümummillli lider Heydər Əliyevin 1993- cü ilin iyununda ikinci dəfə rəhbərliyə gəlişi zamanı müstəqil Azərbaycan Respublikasının 1995- ci il noyabırın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edildi, dövlət dili statusu aldı. Bu tarixi hadisədən başlayaraq, Azərbaycan Respublikasında dil siyasəti birmənalı və yetkin şəkildə formalaşdı. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin ən mühüm cəhətlərindən biri də ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqamətlərinin müəyyən edilməsi oldu. Konstitusiyanın qəbul olunması Azərbaycanın yeni tarixinin ən mühüm hadisələrindən biri olmaqla, ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətlərindəndir. Konstitusiya çoxəsrlik ənənələrimizə söykənərək, milli dövlətçilik tarixində mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın hazırlanması zamanı isə Heydər Əliyev onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə məsuliyyətlə yanaşmışdı. Bununla əlaqədar ulu öndər bildirmişdi: "Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım varki deyəm,çox zəhmət çəkmişəm.Hər bir kəlməni,hər bir sözün mənasını dəfələrlə araşdırmışam. Onun bu gün,gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altına imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bəyan edirəm". 1995- ci ildə Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq elə məhz öz Konstitusiyasını qəbul etdi. Müstəqil və suveren dövlətə sahib olan ölkəmizdə 2025- ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dünyada yaşayan bütün azərbaycanlıları sevindirir, ölkənin digər qurumlarında olduğu kimi AMEA-nın Mərkəzi Elmi Kitabxanasının da qarşısında mühüm vəzifələr qoyur. Belə ki, Azərbaycanın ən zəngin və nüfuzlu kitabxanaları sırasında yer alan AMEA-nın Mərkəzi Elmi Kitabxanası balansında 1 milyon 500 min ədəbiyyatı mühafizə edir. [ 4 ,səh 1]. Mərkəzi Kitabxananın qarşısında duran ən mühüm vəzifələrdən birincisi il ərzində Konstitusiyanın təbliği istiqamətində vəsifələrin yerinə yetirilməsidir. Bu istiqamətdə Mərkəzi Elmi Kitabxanada bir sıra işlər görülür. Bunlardan birincisi məhz elə ənənəvi və virtual kitab sərgiləridir. Həmin sərgilərdə il boyu konstitusiya, dövlətçilik, suverenlik və qanunvericiliklə bağlı ədəbiyyatlar nümayiş etdiriləcək. Bu gün yeni islaharlar mərhələsinə qədəm qoyan MEK-nın əsas hədəfləri sərasında "Elektron Kitabxana "konsepsiyası da mühüm yer tutur və kitabxananın yeniləşən fəaliyyətinin ana xəttinin dünyada baş verən kitabxana-informasiya prosesləri kontekstində oxuculara xidmət sisteminin müasir modelinin hazırlanıb həyata keçirilməsi təşkil edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə qayıdışından sonra milli və bəşəri dəyərlərə əsaslanan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıl-

dı,ölkənin gələcək demokratik inkişafı müəyyən olundu, siyasi şərait yaradıldı. Ona görədə bu gün əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda müasir, demokratik cəmiyyətin formalaşması onun ideyalarının bəhrəsidir.

Ulu öndər Azərbaycanı, sözün əsl mənasında müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən biri elə məhz uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu sıraya təkmil siyasi sistemin,hüququ dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin,siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması aid edilə bilər. Öz fəaliyyətini azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu öndər, eyni zamanda dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı.Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı

Heydər Əliyevin qətiyyətli addımları sayəsində insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən ən mühüm islahat yaşamaq hüququnun təmin edilməsi olmuşdur. 1996- cı ildə Hüquqi İslahat Komissiyası yaradılmış, 1998- ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edilmişdir. Daha sonra Ulu öndərin təşəbbüsü ilə 1997- ci ildə bir sıra xarici ölkələrin təcrübəsinə əsaslanan “Məhkəmələr və hakimlər”haqqında yeni qanun qəbul edildi.Həmin qanunun tətbiqi ilə bağlı müvafiq fərman imzalandı və ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı. 2000- ci ildən yeni,üçpilləli müstəqil məhkəmə sistemi yaradıldı. Ümummilli liderin hakimiyyətə gəlişi cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş və cəmiyyətdə hüquqi hakimiyyətə qayıdışı ölkə iqtisadiyyatının dirçəlməsinə ,sənaye müəssislərinin bərpasına, yeni istehsal sahələrinin fəaliyyətinə ,eyni zamanda özəl sektorun inkişafına güclü təkan verdi. Azərbaycan sağlam, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan milli iqtisadiyyatını qurmağa başladı. 1994- cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasından sonra ölkə iqtisadiyyatında dönüş yarandı. Avropa və Asiya arasında siyasi və ticari əlaqələrin genişləndirilməsində , bir sıra nəhəng layihələrin həyata keçirilməsində mühüm rol oynayan bir dövlətdən, dünyanın neft mərkəzlərindən birinə çevrildi. 1999- cu ilin dekabırında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarıldı. Ulu öndərin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tiblisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə, Azərbaycan,Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi. Bütün bunlar Ulu öndərin əzmkarlığı nəticəsində mümkün oldu.

Heydər Əliyev müasir Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir ki, Azərbaycan tarixinin 40 ili onun adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə Azərbaycanla bağlı gördüyü işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi yazılmışdır. Böyük dövlət xadimi ,görkəmli siyasətçi , müstəqil Azərbaycan dövlətinin memarı,zəmanəmizin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev tarixə çox zəngin irs qoymuşdur. Xalqımızın mənəvi sərvəti olan bu irsi öyrəndikcə bir daha əmin olursanki , ötən əsrin 70- ci illərindən başlayaraq Azərbaycan Respublikasının hərtərəfli inkişafı prosesinə güclü təkan vermiş bu böyük şəxsiyyətin müasir Azərbaycan dövlətinin quruculuğunda müstəsna rolu vardır. Tarixə nəzər salsaq görərik ki, müstəqil və süveren ölkədə yaşamaq hər bir vərəndaşa nəsib olmur. Ölkəmiz Azərbaycan tarix boyu ən ağır cinayətlərə və işğallara məruz qalıb. Azərbaycan 30 ildən artıq müharibə şəraitində yaşayaraq torpaqları işğal altında qalan ,suverenliyi və ərazi bütövlüyü pozulan ölkə olmasına baxmayaraq ,mübarizə əzmi qırılmayan və daim inkişaf edən bir ölkəyə çevrilib.

Müstəqil və güclü Azərbaycanın prezidenti İlham Əliyev Ulu öndər Heydər Əliyevin etimadını hər an doğrultmaqla və onun siyasi irsinə sadiq qalmaqla 2003- cü ildən bu günədək bir çox uğurlara imza atıb. Bu uğurların təməlində Heydər Əliyev siyasətinin təsiri daim hiss olunur.[ 2, səh 2].

2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük vətən müharibəsində əldə etdiyi böyük Zəfər də deyilənlərin ən bariz nümunəsi kimi qeyd

olunmalıdır. Ulu ondərin ruhu artıq şaddır. Çünki, onun arzusu reallaşdı. Cənab Prezident ata vəsiyyətini yerinə yetirdi. Xalq öz Prezidentinin ətrafında yumruq kimi sıx birləşdi və öz suverenliyini bir daha bərpa etdi. Azərbaycan bütün dünyaya öz gücünü ,birliyini ,suveren olmaq istəyini yenidən bəyan etdi. Buna görə biz suveren Azərbaycanın xoşbəxt vətəndaşlarıyıq. Xalqımız artıq, Qarabağ torpaqlarına qədəm qoyub. Unutmaq olmaz ki, bu qürurlu, şərəfli qələbəni Ulu öndər Heydər Əliyev siyasətinə , onun layiqli davamçısı , əzmkar və sarsılmaz iradəli Ali Baş Komandan İlham Əliyevə və Azərbaycanın igid Vətən oğullarına borcluyuq.[2, səh 2]

**Ədəbiyyat**


1. Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir: Mühazirələr toplusu. Bakı: Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, 2017.
2. Heydər Əliyev- Elektron sənədlər toplusu
3. Xalq qəzeti-13 iyun 2020- ci il